Azərbaycan Respublikasının Təhsil Nazirliyi məktəb direktorları və gələcəkdə bu vəzifədə çalışmaq arzusunda olan pedaqoji kadrların təlimlərdə iştirakı üçün müsabiqə elan edir. Bu müsabiqə Qafqaz Universiteti ilə əməkdaşlıq çərçivəsində gerçəkləşdiriləcək.

**Təlimlərin məqsədi** müasir idarəetmə bilik və bacarığına yiyələnmiş, informasiya texnologiyalarına bələd, zəruri pedaqoji və psixoloji bilikləri olan, strateji düşüncə tərzi sərgiləyən ölkəmizin təhsil və sosial inkişafına töhfə verə biləcək məktəb direktorları yetişdirməkdir.

İlkin mərhələdə təlimlər yalnız Bakı şəhərində fəaliyyət göstərən ümumi təhsil müəssisələrini əhatə edəcək.

**Təlimlərin müddəti:**

Təlimlər 2014-cü ilin 21 yanvar – 21 aprel (3 ay) tarixlərini əhatə edəcək.

Dərslər gündə 3 saat (həftəlik 15 saat) olmaqla, həftənin 5 günü təşkil ediləcək.

Təlimlərin günün müxtəlif vaxtlarında (səhər və günorta) keçirilməsi planlaşdırılır.

**Təlimdə əhatə ediləcək mövzular:**

- Təhsildə keyfiyyətin idarəedilməsi
- Təhsil hüququ. Peşə etikası
- Kompüter və təlim texnologiyaları
- Təhsildə statistika və təhlil
- Təhsildə liderlik və təşkilatçılıq
- Psixologiya və fərdi inkişaf
- Kurikulum: Nəzəriyyə və tətbiq
- Təhsildə maliyyənin idarəolunması
- Məktəb icması və ictimaiyyətlə münasibətlərin təşkili

Eyni zamanda iştirakçılar üçün müxtəlif uğurlu təcrübəyə malik məktəblərə səfərlər, qısa müddətli praktika, Təhsil Nazirliyinin əməkdaşlarının və müxtəlif təhsil ekspertlərinin iştirakı ilə müzakirələr də təşkil ediləcək.

**Müsabiqədə iştirak üçün minimum tələblər:**

- Ali pedaqoji təhsil
- 5 (beş) il pedaqoji iş təcrübəsi

**Namizədlərdən gözlənilən digər keyfiyyətlər:**

- Liderlik bacarığı
- Yüksək motivasiyalılıq
- Səmərəli qərar qəbul etmə bacarığı
- Nəticəyönümlülük
- İKT-dən istifadə bacarığı

**Müraciət qaydaları:**

Müəyyən edilmiş tələblərə uyğun gələn namizədlər ərizə formasını (ƏLAVƏ 1) dolduraraq telim@edu.gov.az elektron poçt ünvanına göndərməlidirlər.

**Müraciət üçün son tarix:** 15 dekabr 2013-cü il

**Seçim qaydaları:**

Təlim iştirakçıları 3 mərhələli seçim əsasında müəyyən ediləcək. 1-ci mərhələdə namizədlər elektron poçt ünvanına (telim@edu.gov.az və telim@qu.edu.az) göndərəcəkləri ərizə forması əsasında seçiləcəklər. Növbəti mərhələdə namizədlərin Azərbaycan dilində yazı və məntiqi düşüncə bacarıqları qiymətləndiriləcək. Bu mərhələdə uğur qazanmış namizədlər növbəti mərhələyə - müsahibəyə dəvət ediləcəklər. Hər üç mərhələnin nəticəsi olaraq 50 nəfərin seçimi nəzərdə tutulur.

## Yekun qiymətləndirmə:

Təlimlərdə iştirak etmiş şəxslər Təhsil Nazirliyi tərəfindən təşkil olunacaq imtahanda iştirak edəcəklər. İmtahanlarda qənaətbəxş nəticə göstərmiş namizədlərə “Uğur sertifikatı” təqdim olunacaq. “Uğur sertifikatı” əldə etmiş və hal-hazırda məktəb direktoru vəzifəsində çalışan şəxslərin işlərində səmərəliliyin artırılması üçün müəyyən həvəsləndirmələr tətbiq olunacaq, gələcəkdə bu vəzifədə çalışmaq arzusunda olan pedaqoji kadrlar isə vakant yerlərə təyin olunmaq üçün ehtiyat kadr kimi qeydə alınacaqlar.